

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 65 (22.976)

*10 aprel 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*

Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda çıxış edib.

Prezident İlham Əliyev bildirib ki, birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artıb. Bu, çox gözəl göstəricidir və dünya miqyasında mövcud olan artımdan daha yüksək göstəricidir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artıb. Bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir.

Birinci rübdə sənaye istehsalının 2 faiz, qeyri-neft sənayesinin isə təxminən 10 faiz artdığını diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayemiz 10 faiz artıb və hesab edirəm ki, bu, rekord göstərici sayıla bilər. Kənd təsərrüfatı 4,2 faiz artıb. Bu ilin birinci rübündə ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulub və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Bu, onu göstərir ki, ölkəmiz xarici investorlar üçün çox cəlbedicidir. Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artıb və hazırda 44,2 milyard dollara bərabərdir.



# Naxçıvan şəhərində zinət əşyaları hazırlayan fabrik fəaliyyətə başlamışdır





Aprelin 9-da Naxçıvan şəhərində "Miraj Gold" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılan qızıl və gümüş zinət əşyaları hazırlayan fabrik istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müəssisənin açılışını bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək demişdir ki, bu gün Naxçıvan şəhərində "Miraj Gold" Məhdud Məsuliyyətli Cəmiyyətinin zinət əşyaları müəssisəsinin istifadəyə verilməsi sahibkarlığın inkişafı, istehsalçıların fəaliyyətinin stimullaşdırılması, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən tədbirlərin davamıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında investisiyaların təşviqi ilə bağlı tədbirlər haqqında" Fərmanına uyğun olaraq istehsal sahəsinin fəaliyyətinin stimullaşdırılması məqsədilə İtaliya və Almaniyadan idxal edilən avadanlıqlara investisiya təşviqi sənədi verilmiş, müəssisənin fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Bu müəssisə muxtar respublikada zinət əşyalarına olan tələbatı daxili imkanlar hesabına ödəməyə imkan verəcəkdir.

"Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqının direktoru İlqar Sadiqov demişdir ki, muxtar respublikada sahibkarlıq fəaliyyətinin inkişafına göstərilən diqqət və qayğı müasir texnologiyalara əsaslanan yeni istehsal sahələrinin yaranmasına səbəb olmuşdur. "Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqı da yeni məhsul istehsal edən müəssisələr yaratmaqla tələbatın daxili imkanlar hesabına ödənilməsinə çalışır. Qızıl və gümüş zinət əşyaları istehsalı sahəsinin yaradılmasına Sahibkarlığa Kömək Fondundan 600 min, şirkətin daxili imkanları hesabına isə 2 milyon 700 min manat vəsait sərf olunmuşdur. İlqar Sadiqov sahibkarlığın inkişafına göstərdiyi qayğıya görə Ali Məclisin Sədrinə kollektiv adından minnətdarlıq etmiş, yaradılan şəraitin müqabilində bundan sonra da səylə çalışacaqlarını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada yeni bir sahənin – zinət əşyaları müəssisəsinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Muxtar respublikada vaxtilə zinət əşyaları hazırlayan ustalar olmuşdur. Lakin varislik təmin olunmadığı üçün bu sənət zamanla unudulmuşdur. Bu gün muxtar respublikada az sayda usta bu sənətlə məşğul olur. Zinət əşyaları istehsalı müəssisəsinin yaradılması, müasir avadanlıqların qurulması və mütəxəssislərin cəlb olunması həm zinət əşyalarının hazırlanması üzrə varisliyi təmin edəcək, həm də bu sənət muxtar respublikada inkişaf edəcəkdir.

Ali Məclisin Sədri demişdir: Bu müəssisələr o yerdə yaradılır ki, orada sabitlik, inkişaf, dövlət qayğısı və bazar olsun. Hazırda muxtar respublikada özəl bölmənin inkişaf etdirilməsi üçün həm sabitlik, həm də dövlət qayğısı və bazar mövcuddur. Muxtar respublikada əhalinin və turistlərin tələbatının artması onu deməyə əsas verir ki, zinət əşyaları bazarı da aktiv fəaliyyət göstərəcəkdir. Çünki zinət əşyaları hər bir insana, hər bir ailəyə lazım olur. Ona görə də müəssisədə keyfiyyətli və bazarın tələblərinə uyğun məhsul istehsal olunmalıdır.

Ali Məclisin Sədri istehsal olunan məhsulların ölkə və xarici bazarda özünə yer tutacağına əminliyini bildirərək demişdir ki, müəssisədə zinət əşyalarından başqa, dövlət sifarişləri də yerinə yetiriləcək, muxtar respublikanın fəxri adlarının döş nişanları burada hazırlanacaqdır. Dövlət dəstəyinin göstərilməsi isə müəssisənin fəaliyyətinin genişləndirilməsinə şərait yaradacaqdır. Müəssisədə mütəxəssis hazırlığına və işin keyfiyyətinə diqqət artırılmalıdır. Zinət əşyaları istehsalı müəssisəsinin yaradılması muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsinin də göstəricisidir.

Ali Məclisin Sədri bir daha kollektivi təbrik etmiş, təşkilatçılara təşəkkürünü bildirmiş və istehsal sahəsinə baxmışdır.

Məlumat verilmişdir ki, müəssisədə əritmə, rezin və mum hazırlama, saflaşdırma, metal yoxlama və laboratoriya, lazer, keyfiyyətə nəzarət və təhvil, metal hazırlama, dizayn və nümunə, atelye və qaşbərkitmə bölmələri fəaliyyət göstərir. İtaliya və Almaniya istehsalı olan avadanlıqlarla təchiz edilmiş müəssisədə





*Ardı 2-ci səhifədə*

bütün növ qızıl və gümüş zinət əşyaları, medalyonlar və döş nişanları istehsal olunacaqdır. Müəssisə gün ərzində 5-10 kiloqram əlvan metalları əritmə gücünə, növündən, çəkisindən, modelindən, qiymətli qaş və brilyant miqdarından asılı olaraq 500 ədəd hazır məhsul istehsalı gücünə malikdir.

İtaliyalı mütəxəssis Vittario Qaliano bildirmişdir ki, müəssisədə istənilən qəlib və ölçülərdə, eləcə də dizaynda zinət əşyaları istehsal etmək mümkündür. Qızılın əridilməsi, yoxlanması, təmizlənməsi, nümunələrin hazırlanması və son istehsal prosesinə qədər olan işlər ardıcıl formada həyata keçirilir. Bu da müasir dövrdə zinət əşyaları istehsalı sahəsində tətbiq olunan ən son nailiyyətdir.

İstehsal sahəsi generator, kompressor, transformator, qazanxana, mərkəzi havalandırma, zəhərli qazların təmizlənməsi, isitmə və soyutma sistemləri ilə təchiz edilib. Müəssisənin ərazisində təhlükəsizlik kameraları, yanğından mühafizə sistemi, hərəkət və sınma sensorları, metal dedektorları quraşdırılıb. Həmçinin cəmiyyətin Naxçıvan şəhərində firma mağazası da yaradılmışdır. Müəssisədə 35 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri muxtar respublikanın qədim zinət əşyaları nümunələrinin istehsal prosesində tətbiq edilməsi, bazarın tələbinin öyrənilməsi və bütün yaş səviyyələrinə uyğun məhsulların istehsal olunması, dövlət sifarişlərinin qeydiyyatının aparılması və müəssisədə qızıl qəbulunun həyata keçirilməsi barədə aidiyyəti üzrə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq xalçaçılıq ənənələrinin qorunması, inkişaf etdirilməsi və əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində qeyd olunan Dövlət Proqramında nəzərdə tutulmuş tədbirləri əlaqələndirsin və icra barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 aprel 2018-ci il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı

### 1. Giriş

Xalça sənəti tarixən Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında aparıcı sahələrdən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir.

Naxçıvan xalçaları Azərbaycan xalça sənətini ənənəvi naxışları və elementləri, özünəməxsus rəng çalarları ilə zənginləşdirmişdir. Naxçıvan xalçaçılıq məktəbinin bərpası və öyrənilməsi üçün bir sıra işlər görülmüş, 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılmışdır.

Bundan başqa, Sədərək rayonunda xalçatoxuma müəssisəsi, Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq kursları, Naxçıvan Qızlar Liseyində "Tikiş, toxuculuq və xalçaçılıq" dərnəyi açılmış, "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Xalq Yaradıcılığı Emalatxanasında xalça toxunması təşkil olunmuşdur.

Hal-hazırda xalçaçılıq sənətinə maraq artmışdır. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda təsviri incəsənət ixtisasları üzrə təhsil alan tələbələrə Naxçıvan xalçaçılıq məktəbinin ənənələri öyrədilir. Muxtar respublikanın şəhər və rayonlarında "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" devizi altında xalçaların toxunması geniş vüsət almışdır.

Naxçıvan xalçaçılıq məktəbinin tədqiq olunması, sənədli filmlərin və yeni nəşrlərin hazırlanması da diqqətdə saxlanılmışdır. Naxçıvan Dövlət Xalça Muzeyinin internet səhifəsinin yaradılması, "Naxçıvan xalçaçıları", "Naxçıvan xalçaçılığı: ənənə və müasirlik" kitablarının, "Azərbaycan xalçaları - Naxçıvan qrupu" jurnalının çap olunması, "Naxçıvan xalçaları" sənədli filminin hazırlanması Naxçıvan xalçaçılıq məktəbinin öyrənilməsi və yaşadılması işinə öz töhfəsini vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 fevral tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və yeni infrastrukturunun yaradılması işlərinə başlanılmışdır.

Naxçıvan xalçaları sadəcə istehsal məhsulu deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir.

Yuxarıda qeyd olunanlar nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" (bundan sonra-Dövlət Proqramı) hazırlanmışdır.

### 2. Dövlət Proqramının məqsədi və vəzifələri

Dövlət Proqramının əsas məqsədi aşağıdakılardan ibarətdir:

-xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və davamlı inkişafı;

-xalçaçılığın xammal təminatının yaradılması;

-yeni iş yerləri yaradılmasının dəstəklənməsi;

-xalçaçılıq sahəsində, o cümlədən yun tədarükü və emalı, yun iplikərin istehsalı üzrə ixtisaslı kadr hazırlığının həyata keçirilməsi;

-xalçaçılığın rəqabət qabiliyyətinin və ixrac potensialının artırılması;

-Naxçıvanın tarixi xalçaçılıq mərkəzinə xas olan qədim çeşnilərin bərpa edilməsi, istehsalatda tətbiqi, yeni çeşnilərin hazırlanması və bu çeşnilər əsasında xalçaların toxunması.

### 3. Gözlənilən nəticələr

Dövlət Proqramına daxil edilmiş tədbirlərin icrası nəticəsində aşağıdakılar gözlənilir:

-xalçaçılıq ənənələrinin qorunması;

-xalça istehsalının və ixracının genişləndirilməsi;

-xalçaçılıq sahəsində məşğulluğun artırılması;

-ixtisaslı işçi qüvvəsinin artırılması;

-xalçaçılıq sənətinin inkişafının təmin olunması.

### 4. Dövlət Proqramının maliyyələşmə mənbələri

Dövlət Proqramında nəzərdə tutulan tədbirlər müvafiq illər üzrə dövlət büdcəsində aidiyyəti dövlət orqanları və dövlət qurumları üçün nəzərdə tutulmuş vəsait, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

### 5. Dövlət Proqramının həyata keçirilməsi üzrə

### TƏDBİRLƏR PLANI

| S/S | Tədbirin adı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| **5.1. Xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və təbliği** | | | |
| 5.1.1. | Əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşnilərinin bərpası və inkişaf etdirilməsi | İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, AMEA-nın Naxçıvan Bölməsi | 2018-2022 |
| 5.1.2. | Xalçaçılıq sahəsi üzrə sənətkarların bədii və texniki iş üsullarının öyrənilməsi və təbliği | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadiyyat Nazirliyi, AMEA-nın Naxçıvan Bölməsi | 2018-2022 |
| **5.2. Rəqabət qabiliyyətinin artırılması və daxili bazarın qorunması** | | | |
| 5.2.1. | Naxçıvan şəhərində xalça istehsalı müəssisəsinin yaradılması | İqtisadiyyat Nazirliyi | 2018-2019 |
| 5.2.2. | Yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin yaradılması | İqtisadiyyat Nazirliyi | 2018-2019 |
| 5.2.3. | İplik istehsalının yaradılmasının dəstəklənməsi | İqtisadiyyat Nazirliyi | 2018-2022 |
| 5.2.4. | İpliklərin təbii boyaqlarla boyanması üçün müvafiq istehsal sahəsinin təşkilinin dəstəklənməsi | İqtisadiyyat Nazirliyi, AMEA-nın Naxçıvan Bölməsi | 2018-2022 |
| 5.2.5. | Əllə xalçatoxuma müəssisələrinə güzəştli kreditlərin verilməsi | İqtisadiyyat Nazirliyi | 2018-2019 |
| 5.2.6. | Əllə toxunmuş xalçaların reyestri sisteminin yaradılması | Mədəniyyət və Turizm Nazirliyi | 2018-2019 |
| 5.2.7. | Naxçıvan şəhərində və rayonlarda fəaliyyət göstərən xalçaçılıq emalatxanalarının turizm nümayiş obyekti kimi mədəni turizm marşrutlarına daxil edilməsi və Turizm İnformasiya Mərkəzi vasitəsilə xalçaçılıq irsinin təbliğ edilməsi | Mədəniyyət və Turizm Nazirliyi | 2018-2019 |
| **5.3. Xalçaçılığın ixrac potensialının gücləndirilməsi** | | | |
| 5.3.1. | Xarici xalça bazarlarının araşdırılması və əllə toxunmuş xalçaların ixracı istiqamətində tədbirlərin görülməsi | İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi | Mütəmadi |
| 5.3.2. | Muxtar respublikada istehsal olunan xalçaların ixracının təşviqi üçün internet portalının yaradılması | İqtisadiyyat Nazirliyi | 2018-2019 |
| **5.4. Elmi potensial və kadr təminatı** | | | |
| 5.4.1. | Əllə xalçatoxuma sahəsində peşə təhsilinin dəstəklənməsi | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2018-2022 |
| 5.4.2. | Naxçıvan xalçaçılıq məktəbinin elmi cəhətdən və sistemli şəkildə araşdırılması, yeni elmi nəşrlərin hazırlanması, xalçaçılıq sahəsində unudulmaqda olan ənənələrin bərpası | AMEA-nın Naxçıvan Bölməsi | 2018-2022 |
| 5.4.3. | Naxçıvan xalçaçılıq məktəbinə aid yeni nəşrlərin tədris planına salınması və tədrisinin təşkili | Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu | Mütəmadi |

## Tələbələr prokurorluq orqanlarının iş prinsipləri ilə tanış olublar

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilib.***



Aprelin 9-da universitetin bu ixtisas üzrə 2-ci kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Tələbələr buradakı kitabxananın fondu ilə maraqlanıb, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumatlar alıblar. Sonra onlara prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi izah olunub, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, o cümlədən cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elanetmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri, ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında danışılıb, mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsini icra edən II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev tələbələrlə görüşdə bildirib ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncam tələbələrin nəzəri biliklərinin təcrübədə tətbiqi, onların gələcək fəaliyyətə hazırlanmaları, yaxşı mütəxəssis kimi yetişmələri baxımından böyük əhəmiyyətə malikdir. Sərəncamda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair təsdiq olunmuş tədbirlər planı uğurla icra olunur, Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlər keçirilir. Onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakı təmin olunur. Prokuror diqqətə çatdırıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və həyata keçirilən tədbirlər hazırda da davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin müəllimi Pərviz Qəribov Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri məqsədilə tələbələr üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonda suallar cavablandırılıb.

Qeyd edək ki, tələbələr həmin gün Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində və Naxçıvan Şəhər Prokurorluğunda da olublar.

**Səbuhi HƏSƏNOV**

# “Caspian Energy” jurnalının növbəti nömrəsi Naxçıvana həsr olunub

***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club” Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün illik investisiya reytinqində ən yüksək ümumi bal toplamış Naxçıvan Muxtar Respublikası lider olub. “Caspian European Club” dünyanın 70 ölkəsində investisiya reytinqini hazırlayır və hər bir ölkədə lider region seçir. Ötən il üçün investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ölkəmizin iqtisadi regionları içərisində lider olması müxtəlif mətbuat orqanlarında geniş şərh olunur. 1999-cu ildən nəşr olunan “Caspian Energy” beynəlxalq analitik jurnalının builki yanvar-mart nömrəsi də Naxçıvana həsr olunub.***




İngilis və rus dillərində materialların verildiyi “Caspian Energy” jurnalı nəfis şəkildə çap edilib. 155 səhifəlik jurnalda 2017-ci il üçün illik investisiya reytinqinin qalibi olmuş Naxçıvan iqtisadiyyatının cazibədarlığı, onun dinamik sosial-iqtisadi inkişafının əsas amilləri, sənaye, kənd təsərrüfatı, əhalinin sosial müdafiəsi, nəqliyyat və gömrük işinin təşkili, sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi, muxtar respublika sahibkarlar konfederasiyasının fəaliyyəti barədə məlumatlar verilən jurnalda Naxçıvanın görməli yerləri haqqında maraqlı yazı və fotoşəkillərə rast gəlmək olar.

Jurnaldakı “Naxçıvan Muxtar Respublikası: dinamik sosial-iqtisadi inkişaf bütün sahələri əhatə edir” sərlövhəli məqalə 1995-2017-ci illər arasında Naxçıvanın keçdiyi intibah yolunun qısa xülasəsi verilib. Bununla yanaşı, muxtar respublikanın, əsasən, aqraryönümlü iqtisadiyyatdan çoxşaxəli sənaye potensialının əldə olunmasınadək keçilən yol haqqında müfəssəl məlumatlar yer alıb. Belə ki, 1990-cı illərlə müqayisədə 2017-ci ildə Naxçıvan Muxtar Respublikasında sənaye müəssisələrinin sayı 7,9 dəfə artaraq 442-yə, burada məşğul olan işçi sayının 7,8 dəfə artaraq 16 minə, bu sahədə çalışanların əməkhaqlarının 1995-ci illə müqayisədə 37 dəfə artaraq orta hesabla 375 manata çatdığı vurğulanıb. 2017-ci ildə muxtar respublikadan ixrac olunan sənaye məhsulunun həcminin 320 milyon ABŞ dollarına çatması, ümumilikdə isə 50 ölkə ilə aparılan xarici ticarət dövriyyəsinin 24,2, ixracatın isə 218,5 dəfə artması faktları ilə rastlaşan oxucu Naxçıvanın Azərbaycanın regionları arasında investisiya reytinqindəki lider mövqeyinin səbəb-nəticə əlaqələri haqqında da bitkin informasiya əldə edə bilir. Naxçıvanda özəl sektora aid müxtəlif müəssisələr tərəfindən istehsal olunan 108-i ərzaq və 236-sı qeyri-ərzaq olmaqla, 344 növdə məhsulun daxili tələbatı tam ödəməklə regionun iqtisadi təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadığı vurğulanır.

Naxçıvanın investisiya cazibədarlığını müəyyən edən amillərdən biri onun enerji və ərzaq təhlükəsizliyini tam təmin etməsidir. Belə ki, muxtar respublikanın enerji təminatının tam şəkildə təmin olunduğu və burada elektrik enerjisi istehsal edən 8 stansiyanın ümumi gücünün 239,4 meqavata çatdırıldığı, kənd təsərrüfatı yönümlü 714 müəssisənin fəaliyyət göstərdiyi qeyd olunur.

Muxtar respublikada sosial həyatın yaxşılaşması, əhali gəlirlərində və gələn turist sayındakı artım, ümumilikdə, 12 min yeni infrastruktur obyektinin istifadəyə verilməsi, digərlərinin tamamilə yenilənməsi regionun yüksək investisiya reytinqini formalaşdıran mühüm amillərdəndir. Beləliklə, məqalədə Naxçıvan Muxtar Respublikasında ötən il ərzində iqtisadiyyata sərmayə qoyuluşu həcminin 1995-ci illə müqayisədə 329,9 dəfə artaraq 1 milyard 5 milyon 761 min manata çatdığı, ümumilikdə isə son illərdə region iqtisadiyyatına 8 milyard manatdan çox investisiya yatırıldığı göstərilir.

Ölkə başçısı cənab İlham Əliyevin ***“Biz çalışmalıyıq ki, Azərbaycanda istehlak olunan bütün ərzaq məhsuları Azərbaycanda istehsal olunsun”*** fikirləri ilə başlayan digər məqalə “Kənd təsərrüfatı dayanıqlı inkişaf mərhələsindədir” adlanır. Ərazisinin 30 faizi, yəni 164 min 262 hektarı kənd təsərrüfatı üçün yararlı olan Naxçıvan Muxtar Respublikasında bu torpaqların 62 min hektarı əkin üçün istifadə olunur. Kənd təsərrüfatında dayanıqlı inkişafı təmin edən mühüm amillərin reallaşdırılması nəticəsində 2017-ci ildə Naxçıvanda 101 milyon 478 min ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulu ixrac olunub.

Bununla bağlı jurnalda dərc olunmuş məqalədə, həmçinin ötən il region əhalisinin gəlirlərinin artaraq 1 milyard 846 milyon manata yaxın olduğu, əhalinin hər nəfərinə düşən gəlirlərin isə 4093 manat olduğu yazılıb. Aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan əhali təbəqəsinin həyat səviyyəsinin yüksəldilməsi də muxtar respublikada həyata keçirilən sosial siyasətin əsas məzmununu təşkil edir.

Jurnalda muxtar respublikanın coğrafi mövqeyi, ərazisi, əhalisi, müstəqillik illərində ölkəmizdə və Naxçıvanda həyata keçirilən müxtəlif dövlət proqramları, 2017-ci ildə regionda istehsal olunmuş ümumi daxili məhsulun həcmi, burada özəl sektorun, həmçinin sənayenin, kənd təsərrüfatı və tikintinin yeri, əsas kapitala yönəldilmiş investisiyanın həcmi, son 10 ildə tikilmiş 68, yenidən qurulmuş 79 ümumtəhsil məktəbi haqqında məlumat almaq olar. Burada, həmçinin muxtar respublikada kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, nəqliyyat, sahibkarlıq fəaliyyəti, turizm və demoqrafik göstəricilər haqqında da geniş informasiya tapmaq mümkündür.

Mətbu nəşrdə, həmçinin 2017-ci ildə ölkəmizin regionları arasında investisiya reytinqində lider olmuş Naxçıvan Muxtar Respublikasında gömrük orqanlarının və Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının dinamik sosial-iqtisadi inkişafdakı töhfəsindən də bəhs olunur. Bu yazılarda muxtar respublikada yaradılmış gömrük infrastrukturunun iqtisadi inkişafdakı rolu və 2006-cı ildən fəaliyyət göstərən Sahibkarlar Konfederasiyasının biznes subyektlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətində gördüyü işlərlə tanış olmaq mümkündür.

Jurnalda cari il yanvarın 23-də Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikasının 2017-ci ilin nəticələrinə görə investisiya reytinqində birinci yerə çıxması ilə bağlı keçirilmiş tədbir barədə məlumatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tədbirdəki dərin məzmunlu çıxışını da oxumaq mümkündür.

Müxtəlif vaxtlarda Naxçıvana səfər etmiş Türkiyə, Argentina, Avstriya, Belarus, Fransa, İran İslam, Yunanıstan, Hindistan, Koreya, Latviya, Rumıniya respublikaları, Belçika Krallığı, Almaniya Federativ Respublikası, İsveçrə Konfederasiyası səfirlərinin, habelə ölkəmizdəki Avropa Birliyi Nümayəndəliyinin rəhbərinin təəssüratları, Azərbaycanın bu qədim diyarının təbiəti, tarixi, mədəniyyəti və müasir inkişafı ilə bağlı maraqlı fikirlərlə jurnalın növbəti səhifələrində tanış olmaq mümkündür.

Naxçıvanın görməli yerləri, turizm infrastrukturu, istehsal və sosial-mədəni obyektləri haqda çoxsaylı fotoşəkil və maraqlı yazılar diqqəti cəlb edir.

Jurnalın son səhifələrində birində verilmiş “Naxçıvan-2017-ci ilin lider regionu” sərlövhəli məqalədə isə Azərbaycan Respublikasının iqtisadi regionları arasında 6 qrupda, 18 parametrdə lider olmuş Naxçıvan iqtisadi regionunun digər iqtisadi regionlarla müqayisəsi verilmişdir. Təhlil baxımından çox maraqlı olan bu material Naxçıvan Muxtar Respublikasının investisya cazibədarlığı, onu yaradan əsas amillər haqda əyani təsəvvür yaradır.

“Caspian Energy” jurnalının bütünlükdə Naxçıvana həsr olunmuş növbəti nömrəsi, ümumilikdə, muxtar respublikanın son 25 ilə yaxın bir dövrdə keçdiyi inkişaf yolunu, qazandığı sosial-iqtisadi uğurları, əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində aparılan məqsədyönlü siyasətin bəhrələri haqqında dünya ictimaiyyətini də əhatəli məlumatlandırmaq baxımından qiymətli mətbu nəşrdir.

**✍ Əli CABBAROV**

# Naxçıvanda turizmçilər üçün info-tur təşkil edilib



“Nəqşicahan Holdinq” tərəfindən Naxçıvan Muxtar Respublikasının turizm potensialını tanıtmaq məqsədilə aprelin 8-dən 10-dək qədim diyara “Naxçıvanı tanıyaq və tanıdaq” layihəsi çərçivəsində info-tur təşkil edilib. İnfo-tur çərçivəsində 12 ölkənin və Azərbaycanın 120-dən çox müxtəlif turizm şirkətlərindən, ümumilikdə, 200 nəfərdən çox sahibkar və turizmçi muxtar respublikamıza gəlib.

Səfərin ilk günü “Duzdağ” otelində “Nəqşicahan Holdinq” və Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, həmçinin yerli turizm nümayəndələrinin iştirakı ilə qonaqlarla görüş keçirilib.

Sonra qonaqlar Naxçıvan şəhərindəki “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Kətə” festivalında iştirak ediblər. Bir-birindən maraqlı musiqi nümunələrini dinləyən info-tur iştirakçıları müxtəlif növdə bişirilən kətələrin də dadına baxıblar.

Ardınca Culfa rayonunun ərazisində yerləşən “Əlincəqala” tarixi abidəsi və muzeyi ziyarət edilib. Burada info-tur iştirakçılarına məlumat verilib ki, Əlincəqala tarixi abidəsi və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən bərpa olunub. Əlincəqala tarixi abidəsinin bərpa olunması xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və bütün dünyada tanıdılması baxımından mühüm əhəmiyyət daşıyır.

Sahibkar və turizmçilər “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub, bu tarixi abidələr haqqında ətraflı məlumat alıblar. Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında açıq səma altında nümayiş etdirilən daş abidələr qonaqlarda xoş təəssürat yaradıb. Azərbaycan milli memarlığının möhtəşəm abidəsi olan Möminə xatın türbəsi ilə tanışlıq zamanı bildirilib ki, türbə Azərbaycanın Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin göstərişi ilə 1186-cı ildə tikilib. Həyat yoldaşı Möminə xatının məzarı üzərində ucaldılmış məqbərə tanınmış memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa olunub.

Xan sarayında info-tur iştirakçılarına məlumat verilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasında xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Qonaqlar Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında da olublar. İnfo-tur iştirakçıları Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhidlik



zirvəsinə ucalan Vətən oğullarının məzarlarını ziyarət ediblər.

Sahibkar və turizmçilərin Duzdağ Fizioterapiya Mərkəzi, Uzunoba İstirahət Kompleksi, dəniz səviyyəsindən 2 min 450 metr yüksəklikdə yerləşən Batabat yaylağı ilə tanışlığı da yaddaqalan olub. Məşhur Üzən ada, Ağbulaq İstirahət Mərkəzi qonaqlarda xoş təəssürat yaradıb.

Sonra Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Naxçıvanın turizm potensialı” adlı tanıtım filminə baxış olub. Burada turizmçilərə qədim diyarın çoxsaylı turizm məkanlarının təbliği məqsədilə hazırlanmış bukletlər də təqdim edilib. “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, Atçılıq Mərkəzi, Naxçıvan Biznes Mərkəzi ilə tanış olan info-tur iştirakçıları muxtar respublikada turizmin inkişafı imkanları, qədim diyarın sürətli sosial-iqtisadi tərəqqisi ilə bağlı ətraflı məlumatlar əldə ediblər.

Gəzinti əsnasında qonaqların bir neçəsi ilə görüşüb həmsöhbət olduq. Qonaqların fikrincə, Naxçıvanın geniş turizm potensialı var və mövcud potensialdan lazımınca istifadə olunması üçün qarşılıqlı əməkdaşlıqlar bundan sonra daha geniş məcrada davam etdirilməlidir.



**Sonya Rəhim Nejat (İran):** – Bu, mənim Naxçıvana ilk gəlişimdir. Bir neçə yerlə tanış olduqdan sonra belə qənaətə gəldim ki, Naxçıvanın böyük turizm potensialı var. Göstərilən tanıtım filmindən daha ətraflı məlumat aldıq ki, Naxçıvanda tarixi abidələrin bərpası, yeni turizm obyektlərinin tikintisi diqqətdə saxlanılıb, mühüm layihələr həyata keçirilib. Naxçıvanın kənd yaşayış məntəqələrinin abadlaşdırılması isə məni valeh etdi.

Əlincəqala çox möhtəşəm bir tarixi abidədir. Əslində, qala ilə bağlı məlumatım var idi, lakin orada olmağı çox istəyirdim. Bu gün İran İslam Respublikasından Naxçıvana gələn turistlərin sayı kifayət qədərdir. Biz də çalışacağıq ki, bundan sonra da muxtar respublikaya daha çox turistin gəlməsinə öz töhfəmizi verək.



**Serpil Onal (Türkiyə):** – Əvvəlcə “Nəqşicahan Holdinq”ə minnətdarlığımı bildirirəm ki, bizim üçün belə bir imkan yaradıb Naxçıvana dəvət ediblər. Bu, Naxçıvana ilk gəlişim deyil, lakin turizimçi kimi ilk dəfədir ki, belə böyük layihədə iştirak edirəm. Muxtar respublikanın özünəməxsus gözəlliyi, qonaqpərvər insanları və hər şeydən öncə, səliqə-sahmanı ilə seçilən şəhər və kəndləriniz var. Yaradılmış şərait Naxçıvanın turizm imkanlarını daha da artırır. Buna görə də muxtar respublika bu gün yerli və əcnəbi turistləri yüksək səviyyədə qəbul edəcək potensiala malikdir. Naxçıvan bütün bu gözəllikləri ilə qarşıdakı illərdə daha çox turist qəbul edəcək.



**Samir Cabbarov (Quba):** – Naxçıvanla bağlı məndə çox xoş təəssüratlar yaranıb. Çünki mən bir turizm işçisi olmaqla yanaşı, həm də fotoqrafam. Şəkillərdə Naxçıvanı görürdüm və bu, məndə maraq hissi yaradırdı. Buna görə də Naxçıvana dəvət ediləndə çox sevindim. Gördüklərim isə məni yaxşı mənada təəccübləndirdi. Hər şeydən əvvəl deyim ki, burada bütün küçələr, yollar çox təmizdir. Naxçıvan şəhəri isə xüsusilə gözəldir. Şəhərdə müasirliklə qədimlik bir-birini tamamlayır.

Ötən iki gün ərzində Naxçıvanın bir çox gəzməli-görməli yerlərində olduq. Muxtar respublikada daha çox diqqətimi çəkən yerlər Batabat yaylağı və Ağbulaq İstirahət Mərkəzidir. Buradakı təbiət mənzərələri heyranedicidir. Ümumilikdə götürsək, Naxçıvan müasir inkişafı, turizm potensialı və qonaqpərvərliyi ilə xeyli sayda turisti qəbul etmək imkanlarına malikdir. Qarşıdakı ayda Naxçıvana yenidən gəlib buranın təbiəti, tarixi abidələri, qədim yurd yerləri və müasirləşən yaşayış məntəqələri ilə bağlı fotoreportaj hazırlamaq fikrindəyəm.

**Xəbərlər şöbəsi**



# “Kətə” festivalı başa çatıb

***Qədim Naxçıvan diyarında xalqımıza məxsus milli və mənəvi dəyərlərin, folklorumuzun, adət-ənənələrimizin, o cümlədən milli mətbəx nümunələrimizin qorunub saxlanılmasına, onun təbliğ edilməsinə, yaşadılmasına böyük diqqət göstərilir. Artıq ənənə halını alan milli mətbəx günlərinin keçirilməsi, süfrələrimizin bəzəyi olan bu ləziz nümunələrin tanıdılması, onların gələcək nəsillərə çatdırılması baxımındam mühüm əhəmiyyət daşıyır.***





“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində aprelin 7-də start verilən və iki gün davam edən “Kətə” festivalına da maraq böyük olub. Festivalda 23 ictimai iaşə obyekti və 130 fiziki şəxs iştirak edib. Muxtar respublikamızın ayrı-ayrı rayonlarına məxsus müxtəlif çeşiddə kətələrin hazırlanmasını əyani olaraq izləmək, təndirdə bişmiş kətələrin dadına baxmaq imkanı əldə edən şəhər sakinləri və qonaqlar mənalı istirahət edib, xidmətlərdən məmnun qalıblar.

Festivalın sonuncu günü “Ən dadlı kətə” nominasiyası üzrə müsabiqənin nəticələri elan olunub. Nümayiş olunan məhsullar görünüşünə, çeşid müxtəlifliyi və dadına görə münsiflər tərəfindən seçilərək, festivalın qalibi, ikinci və üçüncü yerlərin sahibləri müəyyənləşdirilib. Münsiflər heyətinin qərarı ilə kətə məhsullarının hazırlanmasında qabiliyyət və bacarığına görə “Ən dadlı kətə” müsabiqəsi üzrə Şərur rayonundan Mirqasım Eminov birinci yerə, Şahbuz rayonundan Aygün Mahmudova, Naxçıvan şəhəri “Büllur” ictimai iaşə obyektinin əməkdaşı Nazilə Allahverdiyeva ikinci, Babək rayonundan Rahilə Cəlilova və Kəngərli rayonundan Pakizə İsmayılova isə üçüncü yerə layiq görülüblər. Qaliblərə diplomlar və “Naxçıvan mətbəxi” kitabı təqdim olunub.

Müsabiqənin qalibi Şərur rayon Yuxarı Yaycı kənd sakini Mirqasım Eminovla həmsöhbət olduq. Onun dediklərindən:

– Naxçıvanda bişirilən şomu, qarışıq göyərti, çiriş, gicitkən, balqabaq, mərcimək, lobya, cəviz, halva, şirin, döymə, dürmək kətələri çox məşhurdur. Yazın ilk aylarında yeyilə bilən yabanı bitkilərdən hazırlanan kətə çeşidləri Naxçıvan mətbəxində xüsusi yerə malikdir. Bu bitkilərdən hazırlanan kətə insan orqanizmi üçün çox faydalıdır.

Kətələri kəndimizin uca dağlarında bitən ən dadlı pencərlərimizdən hazırlayırıq, – deyərək söhbətimizə qoşulan həmin kəndin sakini Bəyim nənə Şərur bölgəsində hamı tərəfindən sevilən və xüsusilə Novruz bayramının son günü bişirilən lobya kətəsi haqqında danışdı:

– Əvvəlcə lobyanın toxumları təmizlənir, qurudulur. Bu kətənin xəmiri də digər kətə xəmirlərindən fərqlidir. Un, yağ, süd, droj və sarıkök qarışdırılır, yoğurulur və xəmirin acımasını gözləyirlər. Sonra lobya toxumu və mərcimək yaxşı qaynadılıb süzülür. Əvvəlcədən qovurduğumuz soğanla birlikdə ət maşınından keçirilir. Xəmirin içərisinə hazırladığımız içlikdən qoyub, büküb, yastılayıb, üzərinə yumurta sarısı vurub, təndirdə bişiririk. Bəyim nənə onu da bildirdi ki, bu, Naxçıvan mətbəxinə məxsus olan ən qədim kətə növlərindəndir.

Həmsöhbətlərim göstərilən dövlət qayğısına görə minnətdarlıq etdilər. Bildirdilər ki, bu cür tədbirlərin davamlı keçirilməsi xalqımıza məxsus mətbəx nümunələrini yaşatmaqda böyük rol oynayır.

Digər bir müsahibim Kəngərli rayon sakini, müsabiqədə üçüncü yerə layiq görülən Pakizə İsmayılova dağ bitkiləri və onlardan hazırlanan kətələrin dadından söhbət açdı. O dedi ki, bu yabanı bitkiləri özləri dağlardan toplayırlar. Dadı ilə seçilən pencərlərin mineral tərkibi çox zəngin olduğu üçün onlardan hazırlanan kətələr faydalıdır.

Sədərək rayonundan gələn Kəmalə Əliyeva hazırladıqları “tənbəl” kətəsinin niyə bu cür adlandırıldığı haqqında bizə məlumat verdi: “Rəvayətə görə, bir gün şah şəhəri gəzməyə çıxır, təsadüfən bu qocanın evinə qonaq olur. Bu kişinin də bir tənbəl qızı var imiş. Padşahın gəldiyini görən ata qızına yemək hazırlamasını tapşırır. Tənbəl qız evdə nə qədər pencər varsa, hamısın birbirinə qatır və kətə bişirib şaha təqdim edir. Şah bu kətəni çox bəyənir. Elə həmin günün səhəri qızın evinə elçi göndərib, atasından razılıq alıb onunla ailə qurur. O vaxtdan bu kətənin adı “tənbəl” kətəsi qalıb”.

Festivalda münsiflər heyətinin üzvləri ilə də görüşərək söhbət etdik. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzinin direktoru Türkay Səfərzadənin dedikləri:

– Naxçıvan mətbəxi müxtəlif növ yeməkləri kimi kətələri ilə də məşhurdur. Yerli mətbəximizdə 20-yə yaxın kətə növü mövcuddur. Bunlar bu günə qədər mətbəximizdə sevilə-sevilə hazırlanır.

Türkay Səfərzadə onu da dedi ki, festivalda keçirilən “Ən dadlı kətə” müsabiqəsində münsiflər heyəti olaraq növbənöv dadlı məhsullardan ən yaxşısını seçməkdə çətinlik çəksək də, ədalətli olmağa çalışdıq. Seçim zamanı bir sıra məziyyətlərlə yanaşı, festivala gələnlərin maraqlarını da nəzərə aldıq.

Naxçıvan mətbəxi öz bənzərsizliyi ilə seçilir. Özünəməxsus dad-tamı ilə qədimdən bəri mətbəximizdə yaşadılmış kətə çeşidlərinin də tanıdılması üçün bu festivalların keçirilməsi çox böyük əhəmiyyət kəsb edir. Festivalda iştirak edənlərin çoxluğu və nümayiş olunan məhsulların çeşidliliyi, eyni zamanda yerli əhali və xarici qonaqlar tərəfindən festivala böyük maraq göstərilməsi, buradakı qələbəlik zəngin xalq yaradıcılığımızın, milli dəyərlərimizin, bənzərsiz mətbəximizin təbliği baxımından belə tədbirlərin təşkilinin əhəmiyyətini bir daha təsdiq etdi.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Muxtar respublikanı ölkə birinciliyində təmsil edəcək komandalar məlum olub

***Azərbaycan Futbol Federasiyaları Assosiasiyası Naxçıvan Muxtar Respublikasında aşağı yaş qruplarından təşkil olunmuş komandalar arasında turnir keçirib.***

Turnirdə muxtar respublikanın şəhər və rayonlarının komandaları mübarizə aparıblar. Şərur Olimpiya-İdman Kompleksində keçirilən turnir 7 gün davam edib.

Oyunların nəticəsinə gəlincə, 10 yaşlı futbolçuların mübarizəsində “Şahbuz” və “Araz-Naxçıvan” futbolçuları üz-üzə gəliblər. Görüşün əsas və əlavə vaxtı heç-heçə (3:3) başa çatdığından qalibi penaltilər müəyyənləşdirib. Zərbələri daha dəqiq yerinə yetirən şahbuzlu futbolçular qalib adını qazanıblar. – 3:2. 11 yaşlıların qalibi isə “Şərur” komandası olub. Onlar Kəngərli rayonundan olan rəqiblərini 8:3 hesabı ilə məğlub ediblər.

Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbinin (UGİM) komandası isə 12 yaşlı futbolçuların liqasının qalibi olub. Onlar buna “Şahbuz” komandasını 9:2 hesabı ilə məğlub etməklə müvəffəq olublar. Məktəbin digər komandası 13 yaşlı futbolçuların final görüşündə “Araz-Naxçıvan” komandasını büdrədiblər – 4:2. UGİM-in digər komandası – “U-14” də final görüşünü qələbə ilə başa vurub. Belə ki, “Şərur” komandası ilə görüş 7:0 hesabı ilə UGİM-in xeyrinə başa çatıb.

“Məktəbli kuboku”nun final görüşündə Ordubad və Şərur rayon məktəblərinin komandaları üz-üzə gəliblər. Şərurlu şagirdlər 9:3 hesabı ilə qələbə qazanıblar.

Final görüşlərini Bakıdan gələn hakimlər briqadası idarə edib.

Qeyd edək ki, qalib komandalar muxtar respublikanı Azərbaycan çempionatında təmsil edəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**

# Humanitar tibbi aksiya keçirilib



Muxtar respublikada müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadalarının mütəmadi olaraq rayonlarda humanitar tibbi aksiyalar keçirməsi aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinə hərtərəfli şərait yaradır.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.

Həmin tədbirlərin davamı olaraq ötən şənbə Babək Rayon Mərkəzi Xəstəxanasında humanitar tibbi aksiya keçirilib. Bunun üçün əvvəlcədən hazırlıq işləri görülüb, müayinə və müalicə olunacaq xəstələr xəstəxanaya dəvət olunublar.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası 57 nəfəri ambulator müayinələrdən keçirərək müvafiq tövsiyələr verib. Müayinələrin aparılmasında cərrah, oftalmoloq, uroloq, endokrinoloq, terapevt, nevropatoloq və LOR həkimləri iştirak ediblər.

Nehrəm kənd sakini Hüseynalı Cəfərovun iki övladı ambulator tibbi müayinələrlə əhatə olunub. Valideyn övladlarının başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində müayinə olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi

## *Naxçıvan Dövlət Universiteti aşağıdakı boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***Dekan vəzifəsini tutmaq üçün***

1. İqtisad

***Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün***

1. Botanika
2. Ümumi tarix
3. İngilis dili və tərcümə

***Kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir***

1. Arxiv işi, muzeyşünaslıq və abidələrin qorunması – dosent – 1 yer (0,5 ştat); dosent – 2 yer;
2. Dünya iqtisadiyyatı və menecment – müəllim – 1 yer; dosent – 1 yer;
3. Əczaçılıq və stomatologiya – müəllim – 3 yer; baş müəllim – 2 yer (0,5 ştat);
4. Azərbaycan ədəbiyyatı – professor – 1 yer (0,5 ştat); dosent – 2 yer;
5. Jurnalistika və dünya ədəbiyyatı – dosent – 1yer;
6. Pedaqogika və psixologiya – dosent – 1 yer (0,5 ştat); dosent – 3 yer; baş müəllim – 1 yer (0,5 ştat);
7. Bədən tərbiyəsi və idman – baş müəllim – 1 yer;
8. Fiziki tərbiyə və idman oyunları – professor – 1 yer; baş müəllim – 2 yer;
9. Musiqişünaslıq və metodika – baş müəllim – 1 yer; müəllim – 1 yer; professor – 1 yer;
10. Memarlıq – dosent – 1 yer (0,5 ştat); dosent – 1 yer; baş müəllim – 1 yer; müəllim – 1 yer (0,5 ştat); müəllim – 1 yer;
11. Musiqi təlimi – baş müəllim – 3 yer; müəllim – 2 yer; müəllim – 1 yer (0,5 ştat);
12. Botanika – dosent – 1 yer (0,5 ştat); dosent – 2 yer; müəllim – 1 yer;
13. Şərq dilləri və ədəbiyyatı – baş müəllim – 1 yer;
14. İqtisadiyyat – professor – 1 yer (0,5 ştat); müəllim – 1 yer;
15. Riyazi analiz – dosent – 1 yer; baş müəllim – 1 yer;
16. Təsviri incəsənət – professor – 1 yer (0,5 ştat); dosent – 2 yer; müəllim – 1 yer;
17. Baytarlıq təbabəti – professor – 1 yer (0,5 ştat); dosent – 1 yer; dosent – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer;
18. İngilis dili və tərcümə – dosent – 1 yer (0,5 ştat); dosent – 1 yer; müəllim – 3 yer;
19. Orkestr alətləri və dirijorluq – baş müəllim – 4 yer;
20. Fortepiano – baş müəllim – 4 yer; müəllim – 1 yer (0,5 ştat); professor – 2 yer;
21. Kimya – dosent – 3 yer;
22. Mühasibat uçotu və maliyyə – professor – 2 yer; dosent – 1 yer;
23. Azərbaycan dilçiliyi – dosent – 1 yer;
24. Ümumi və nəzəri fizika – dosent – 2 yer;
25. Ümumi tarix – dosent – 1 yer; müəllim – 1 yer (0,5 ştat);
26. Azərbaycan tarixi – dosent – 1 yer (0,5 ştat);
27. Xalq çalğı alətləri – dosent – 2 yer; müəllim – 1 yer (0,5 ştat); müəllim – 1 yer;
28. Hüquq fənləri – müəllim – 2 yer; baş müəllim – 1 yer;
29. Bələdiyyə və turizm – müəllim – 1 yer;
30. Zoologiya – dosent – 1 yer; baş müəllim – 1 yer (0,5 ştat);
31. Tibbi klinik fənlər – müəllim – 2 yer (0,5 ştat);
32. Ümumi təbabət və gigiyena – müəllim – 1 yer (0,5 ştat);
33. Beynəlxalq münasibətlər – müəllim – 1 yer (0,5 ştat);
34. İngilis dili və metodika – müəllim – 1 yer; baş müəllim – 1 yer;
35. Meliorasiya və STTM – müəllim – 1 yer;
36. İnformatika – baş müəllim – 2 yer;
37. Fəlsəfə və sosial iş – dosent – 1 yer;
38. Teatr və mədəniyyətşünaslıq – müəllim – 1 yer;
39. Bəstəkarlıq – dosent – 1 yer;
40. Çağırışaqədərki hazırlıq və mülki müdafiə – baş müəllim – 1 yer;
41. Rabitə və informasiya texnologiyaları – baş müəllim – 1 yer;
42. Kitabxanaçılıq və informasiya – baş müəllim – 1 yer (0,5 ştat);
43. Rus dili və ədəbiyyatı – dosent – 1 yer (0,5 ştat); dosent – 1 yer; baş müəllim – 1 yer;
44. Təməl tibb fənləri – baş müəllim – 1 yer;
45. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi – dosent – 1 yer;

***Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.***

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi.***
***Telefonlar: (036)545-23-66/10-01***

### *İtmişdir*

Naxçıvan şəhəri, Y.Cabbarov küçəsi, döngə 2, ev 4-də yaşayan Seyidov Mirhəşim Mirziyəddin oğlunun adına olan 1138 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Həsənova Tərlan Əli qızının adına olan torpaq sahəsinin A-015163 inventar nömrəli plan və ölçüsü, MH-0050983 nömrəli çıxarış və evin 13244 inventar nömrəli texniki pasportu, MH-0045664 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 267